# TENDERƏ DƏVƏT

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi üçün qeyri-maddi aktivlərin satınalınması ilə əlaqədar

## *AÇIQ TENDERƏ DƏVƏT EDİR*

Tender 4 lot üzrə keçirilir.

**Tenderin predmeti:**

**Lot 1**. Rəsmi statistika hesabatları və digər statistik məsələlər üzrə proqram təminatlarının hazırlanması işlərinin satınalınması.

**Lot 2.** İRM businessDoc "Sənəd dövriyyəsi - kargüzarlıq" proqram vasitəsinin imkanlarının artırılması və əlavə funksiyaları təmin edən modulların hazırlanması.

**Lot 3.** İBM SPSS proqram təminatı lisenziyalarının satınalınması.

**Lot 4.** Antivirus proqram təminatı lisenziyalarının satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş hər bir lot üzrə əsas şərtlər toplusunu Dövlət Statistika Komitəsinin inzibati binasının yerləşdiyi Bakı şəhəri, İnşaatçılar prospekti 81 (otaq 513) ünvanından əldə edə bilərlər (Əlaqələndirici şəxs Qasımova Qönçə, Telefon: 012  538-62-57).

**İştirak haqqı:**

Lot 1 – 500 manat

Lot 2 – 200 manat

Lot 3 – 150 manat

Lot 4 – 100 manat.

| | |
|---|---|
| Adı: | Dövlət Statistika Komitəsi |
| Hesab №-si | AZ59CTRE00000000000002238401 |
| VÖEN: | 1300189411 |
| Benefisar (alan) bank | Dövlət Xəzinədarlıq Agentliyi |
| Kodu: | 210005 |
| VÖEN: | 1401555071 |
| Müxbir hesab: | AZ41NABZ01360100000000003944 |
| SWİFT BİK: | CTREAZ22 |
| XHK | 2238401(002353) |
| Büdcə təsnifatının kodu | 142340 |
| Büdcə səviyyəsinin kodu | 7 |

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərfin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olub-olmaması barədə vergi orqanı tərəfindən verilmiş arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank arayışı;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin surəti, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- iddiaçının müqaviləni yerinə yetirmək üçün potensial imkanları (iddiaçının ixtisasına dair məlumatlar, işlərin keyfiyyətinə dair zəmanət) haqqında məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank təminatı istisna olmaqla) 7 iyun 2016-cı il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 17 iyun 2016-cı il saat 17:00-a qədər Dövlət Statistika Komitəsinin inzibati binasının yerləşdiyi Bakı şəhəri, İnşaatçılar prospekti 81 (otaq 513) ünvanına (Əlaqələndirisi şəxs Qasımova Qönçə, Telefon: 012 538-62-57) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 20 iyun 2016-cı il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda, 414-cü otaqda açılacaqdır.

**Tender Komissiyası**